**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az


"_____" _________________2014-cü il №_______________

**ƏMR № 312**

**Bakı şəhəri** **26 sentyabr 2014-cü il**

**"Məişət zorakılığına səbəb olan halların araşdırılması üçün tibb müəssisələrinə müraciət edən qadınlar arasında sorğunun aparılması barədə"**

Səhiyyə Nazirliyinin 15.02.2012-ci il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 1.2.8-ci bəndinin 2-ci hissəsinin icrası məqsədi ilə

**ƏMR EDİRƏM**

1.Qadınlara qarşı məişət zorakılığının xüsusiyyətlərinin və səbəblərinin araşdırılması üçün 2014-cü ilin sonunadək Respublikanın Lənkəran, Beyləqan, Füzuli və Şəmkir rayonlarında tibb müəssisələrinə müraciət edən qadınlar arasında sorğu aparılsın.

2.Sorğunun aparılmasının təşkili və keçirilməsi, eləcə də sorğu nəticələri əsasında hesabatın hazırlanması və zəruri məlumatların müvafiq qurumlarla müzakirəsinin təşkil edilməsi Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri Töhfə Cəmilovaya tapşırılsın.

3.Baş mühasib Abuzər Məmmədova qeyd olunan tədbirlərin 2014-cü ilin sonunadək keçirilməsi üçün xərclərin smetasının tərtib edilməsi və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.

4.Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

Rauf Məmmədov, Səbuhi Abdullayev! Əmr layihəsi hazırlansın 25.09.2014

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Səhiyyə Nazirliyinin 15.02.2012-ci il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 1.2.8. (2) bəndinin icrası məqsədi ilə İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən qadınlara qarşı məişət zorakılığının xüsusiyyətlərinin və səbəblərinin araşdırılması üçün sorğunun aparılması məqsədəuyğun hesab edilir.

Sorğu zamanı əldə ediləcək nəticələr qadınlara qarşı məişət zorakılığı sahəsində aparılan profilaktik və maarifləndirmə işlərinin təkmilləşdirilməsinə imkan yaradacaq.

Bu məqsədlə İSİM tərəfindən 2014-cü ilin sonunadək Lənkəran, Beyləqan, Füzuli və Şəmkir rayonlarında tibb müəssisələrinə müraciət edən qadınlar (cəmi 400 nəfər) arasında sorğunun keçirilməsi, əldə olunmuş məlumatın işlənməsi və təhlili, hesabatın hazırlanması və nəticələrin yayılmasının təmin edilməsi təklif olunur.

Həmin tədbirlərin həyata keçirilməsi üzrə layihə təklifi əlavə edilir.

**Səhiyyə siyasəti şöbəsinin müdiri** **Töhfə Cəmilova**

18 sentyabr 2014-cü il

**Azərbaycanda qadınlara qarşı məişət zorakılığının xüsusiyyətlər və səbəb olan halların araşdırılması üzrə**

# LAYİHƏ

| № | Tədbirin adı | Gözlənilən nəticələr | Tarix (2014) |
|---|---|---|---|
| 1. | Hazırlıq işlərinin təşkili | İşçi qrupun yaradılması,<br>aidiyyəti qurumlara məktubla müraciətin edilməsi,<br>aidiyyəti nümayəndələrlə əlaqələrin qurulması,<br>layihənin sahə işlərinin yerlərdə aparılması tarixlərinin müəyyənləşdirilməsi təmin ediləcək. | sentyabr-oktyabr |
| 2. | Sorğu dizaynının tərtibatı | Aparılacaq sorğunun dizaynı tərtib olunacaq (məqsəd, vəzifələr, seçmə dizaynı, sorğu metodologiyası, marşrutlar, cədvəl və s.) | oktyabr |
| 3. | Sorğu anketinin hazırlanması və çapı | Qadınlara qarşı məişət zorakılığının xüsusiyyətlərinin və səbəblərinin araşdırılması üzrə anket hazırlanacaq və 400 ədəd çap olunacaq. | oktyabr |
| 4. | Sahə işlərinin aparılması | Sahə işləri üçün istiqamətlər üzrə 2 qrup yaradılacaq.<br>Sahə işləri aşağıdakı ərazilərdə aparılacaq:<br>1-ci istiqamət: Lənkəran və Beylaqan<br>2-ci istiqamət: Fuzuli və Şəmkir | noyabr |
| 5. | Məlumatların statistik işlənilməsi | Məlumat bazası hazırlanacaq. Məlumatlar bazaya daxil ediləcək. Məlumatlar işlənilib təhlil ediləcək. | noyabr - dekabr |
| 6. | Hesabatın yazılması və çapı | Sorğu nəticələrinə dair hesabat hazırlanacaq. | dekabr |
| 7. | Nəticələr barədə məlumatın yayılması | Sorğunun nəticələrinə həsr olunmuş dəyirmi masa keçiriləcək. | dekabr |